**Sevda Tofiq qızı HACIYEVA**
Azərbaycan Dövlət Aqrar Unversitetinin dosent

# AQRAR SAHƏDƏ RƏQABƏT QABİLİYYƏTLİ MƏHSUL İSTEHSALINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLUNUN YÜKSƏLDİLMƏSİ

**Xülasə**

*Tədqiqatın məqsədi* aqrar sahədə rəqabət qabiliyyətli məhsul istehsalında kiçik və orta sahibkarlığın rolunun yüksəldilməsinin tədqiqidir. Bu məqsədlə, aqrar sahənin rəqabətqabiliyyətlilik problemləri açıqlanmışdır. Aqrar sahənin rəqabətqabilyyətinin yüksəldilməsində kiçik və orta sahibkarlığın rolunun artırılması problemləri araşdırılmışdır. Kiçik və orta sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* metodu sırasında bir qrup metodlardan, o cümlədən analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, aqrar sahədə rəqabətqabiliyyətlilik problemləri üzrə müxtəlif metodoloji yanaşmalar baxılmışdır.

*Tədqiqatın nəticələri* baxımından qeyd edirik ki, alınmış elmi-praktiki nəticələrdən aqrar sahədə rəqabət qabiliyyətli məhsul istehsalının təşkilində kiçik və orta sahibkarlıq subyektlərinin rolunun yüksəldilməsi üzrə tədbirlərinin və mexanizmlərin hazırlanmasında istifadə edilməsi faydalı ola bilər.

***Açar sözlər**: aqrar sahə, rəqabət, məhsul istehsalı, rəqabətqabiliyyətlilik problemləri, kiçik və orta sahibkarlıq, aqrar sahənin inkişaf problemləri.*

UOT: 338.012:338.43:
JEL: Q13; Q18; L32; P13
DOI: 10,54414/SIFL8644

**Giriş**

Qeyd edək ki, müasir iqtisadi şəraitdə həyata keçirilən iqtisadi siyasətin ən ümdə məqsədlərindən biri daxili tələbatı yerli istehsal imkanları hesabına ödəmək və yerli istehsalın rəqabətədavamlılığını yüksəltməklə ixrac potensialını artırmaqdan ibarətdir. Məhz bu baxımdan son illər respublikamızda neft sektorunun alternativlərinin artırılması və ixracın strukturunda iqtisadiyyatın müxtəlif sahələrinin payının yüksəldilməsi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmışdır. Xüsusilə bazar iqtisadiyytının əsas hərəkətvərici qüvvəsi olan sahibkarlıq subyektlərinin iqtisadi fəallığının yüksəldilməsi və onları təşviq edəcək mexanizmlərin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri bu aspektdən qiymətləndirmək olar. Milli iqtisadiyyatın əsas sahələrindən olan aqrar iqtisadiyyatın inkişaf problemləri də bu sırada aktuallığı ilə diqqət çəkir [1]. Digər tərəfdən, məlum olduğu kimi aqrar sahədə sahibkarlıq subyektlərinin təşəkkülü və inkişafı azad iqtisadi münasibətlər sistemin əsas elementlərinin tətbiq səviyyəsindən yüksək səviyyədə asılıdır. Araşdırmalar göstərir ki, dünyada inkişaf səviyyəsindən asılı olmayaraq hər bir dövlətdə aqrar sahibkarlığa dəstək labüd xarakter daşıyır. Yəni istər Amerika,Kanada, Almaniya, İngiltərə və s. kimi son dərəcə azad rəqabət şəraitinə uyğun iqtisadi sitemlərdə istersə keçmiş postsovet respublikalarında aqrar sahə digər sahələrlə müqayisədə dövlət dəstəyinə daha çox ehtiyac duyur. Aqrar sahədə iqtisadi subyektlərin dövlət tərəfindən təstəklənməsində də ilk növbədə kiçik və orta sahibkarlıq qurumları prioritetlik təşkil etməlidirlər [2].

Kiçik və orta sahibkarlığın (KOS) inkişafında dövlət siyasətinin ən ümdə vəzifələri hədəflənən məqsəd və vəzifələrin mövcud olan imkanlarla tam olaraq uzlaşdırmaqdır. Bu proses iqtisadiyyatın mövcud durumu, dövlətin büdcəsinin gəlir-xərc təsnifatı, istehsal əlaqələrinin xüsusiyyəti, mülkiyyət münasibətlərinin vəziyyəti, bazar infrastrukturunun vəziyyəti və s. amillərlə sıx bağlıdır. Aqrar sahədə fəaliyyət göstərən KOS-ın dövlət tərəfindən dəstəklənməsi və təşviq edilməsi hazırki iqtisadi şəraitdə ixracın əmtəə strukturunun genişlənməsi baxımından da xüsusi əhəmiyyət

kəsb edir. Aqrar sahədə KOS-ın ixrac potensialının yüksəldilməsi isə birbaşa olaraq rəqabət mühitindən asılıdır.

Rəqabət mühitində heç kim və ya qurum imtiyazlı bir vəziyyətdə olmamalı və ayrıseçkiliyə yol verilməməlidir. Bəzən rəqabət şəraitində oyun qaydalarını və nəticəsini müəyyənləşdirmək üçün rəqib sayının çox olması şərti axtarılır. İqtisadi sahədə rəqabət şərtləri bazar şərtləri daxilində qurulur.

**Müasir dövrdə aqrar sferada rəqabət qabiliyyətli məhsul istehsalında kiçik və orta sahibkarlıq subyektlərinin rolunun tədqiqi**

Məlumdur ki, müasir iqtisadi şəraitdə rəqabət qabiliyyəti müəssisənin, sənayenin, kənd təsərrüfatının, ümumilikdə ölkənin iqtisadi inkişafın əsas meyarlarından hesab olunur. Pandemiyanın təsirləri göstərdi ki, istehsal infrastrukturu zəif olan və xüsusilə fövqəlada hallar zamanı çevik manevr qabiliyyətinə malik olmayan inkişaf səviyyəsi aşağı olan ölkələrdə iqtisadiyyatın bütün sahələri ilə yanaşı kənd təsərrüfatında da bir çox amillər sahənin potensial imkanlarında istifadə səviyyəsinə təsir edir, bu isə rəqabət qabiliyyətliliyi müəyyənləşdirən göstəricilərin dəyişməsinə səbəb olur [3]. İstehsal amili kimi torpaq və ondan istifadə də mühüm rol oynayan iqlim şəraiti istehsalın məhsuldarlığına əhəmiyyətli dərəcədə təsir göstərir. Xüsusilə məhsuldarlığa yağış, iqlim şəraiti və digər təbiət hadisələri istehsal prosesində aktiv rol oynayır. Bu aspektdə istehsal sahələrində fövqal hadisələrin təsirini minimum səviyyəyə endirmək üçün mütərəqqi texnolojiyaların formalaşdırılması və tətbiqi vacibdir. Qeyd olunan məsələlər iqtisadiyyatın strukturunun genişləndirilməsində və təkmilləşdirilməsində önəmli amillər kimi baxılır [4]. Digər tərəfdən, texnoloji yeniliklərin və innovasiyaların tətbiqi isə kənd təsərrüfatında istehsalın strukturunun təkmilləşdirilməsini və dövrün tələblərinə uyğun kadr potensialının formalaşdırılmasını şərtləndirir. Bunlarla bərabər, ixtisaslı kadrlar və rəqabətqabiliyyətli işçi qüvvəsi. Elmi-texniki nəaliyyətlərin istehsal sahələrinə interasiyasının təmin olunduğu müasir dövrdə ixtisaslı kadrlar olmadan həmin texnologiyalardan istifadə mümkün ola bilməz. İnnovativ texnologiyalar və ixtisaslı kadrlar əmək məhsuldarlığının yüksəldilməsində əhəmiyyətli rol oynayırlar. Bu vəziyyətdə aqrar sahədə bir işçiyə müvafiq olaraq yaranan əlavə dəyərin həcmi səmərəliliyin əsas göstəricisi ola bilər [5].

Qeyd edək ki, pandemiyanın təsirləri ilə yanaşı uzun reproduktiv dövrü ilə səciyyələnən kənd təsərrüfatı sektoru maliyyə təminatı baxımından hər zaman çatışmazalıqların hiss olunduğu sahələrdəndir. Bu baxımdan aşağı faizli kreditlərin verilməsi və biznes kreditlərinin ümumi kredit portfelində xüsusi çəkisinin artırılması hazırda ən ümdə məsələlərdən hesab olunmalıdır. Kənd təsərrüfatı üçün kapital qoyuluşu və investisiya cəlbediciliyinin artırılması mexanizmlərinin formalaşdırıl ması da bu aspektdə mühüm rol oynayır. Bu problemlərin həlli üçün daha səmərəli və müasir praktiki fəaliyyət alətlərinin tətbiqi vacibdir [**6].** Strategi yanaşma və rəqabət. Kənd təsərrüfatı müəssisələrinin təşkilati quruluşu onların fəaliyyətinin optimallaşdırılmasını, istehsal xərclərinin azaldılmasını, qərar qəbul edilməsində çeviklik və səmərəliliyin artırılmasını tələb edir. Sağlam rəqabətin olması kənd təsərrüfatı müəssisələri və sahibkarlar üçün istehsalın keyfiyyətini artırılmasını, innovasiyaların tətbiqini və istehlak bazara yeni məhsullar çıxarılmasını şərtləndirir [7**]. A**qrar sahədə biznes subyektlərinin böyük bir bazar payına sahib olması təsərrüfatlar üçün əhəmiyyətli rəqabət üstünlüyü yaradır. Son istehlakçılarda kənd təsərrüfatı məhsullarına yüksək tələbatın olması, buna paralel olaraq ərzaq istehsal edən emal sənaye müəssisələri, satış kanalları və digər topdansatış alıcıları təkrar istehsalın intensivləşdirilməsini təşviq edir. Dövlət aqrar bazarda tələb səviyyəsinə nəzərəçarpacaq səviyyədə təsir göstərir. Dünyanın bir çox ölkəsində aqrar istehsal subyektləri subsidiyalaşdırılır və onların fəaliyyətində davamlılığı təmin etmək üçün geniş imkanlar yaradılır [8].

Müasir dövrdə analoji məsələlər bir daha öz aktuallığını qorumuşdur. Aqrar sahədə istehsal subyektlərinin təsərrüfat risqlərini minimuma endirmək məqsədilə aqrar sığortanın inkişaf etdirilməsi labüddür. Kənd təsərrüfatı, fövqəlada hadisələrərdən ən çox təsirlənən iqtisadi sahələrdəndir. Bu amil bütün növ riskləri minimuma endirməsini bir növ zərurətə çevirir və sahibkarları bu məqsədlə sığorta xidmətinin imkanlarından istifadə etməyə yönləndirir. Hazırda bir çox iqtisadçı ekspertlər müasir dövründə aqrobiznes sektorunda istehsal subyektlərinin çox böyük

itkilərlə qarşılaşmadığı fikrini irəli sürür [9]. Lakin bir məsələni xüsusi vurğulamalıyıq ki, hazırkı dövrdə əhalinin tələbində böyük bir dəyişikliyin baş verməsə də tələb strukturunda əhəmiyyətli dəyişikliklər meydana çıxmışdır. Belə ki,insanların gündəlik istehlak tələbi dəyişməsədə əhalinin böyük bir qisminin işsiz qalması əldə olunan gəlir səviyyəsində nəzərə çarpacaq azalmaların olmasına, alıcılıq qabiliyyətinin aşağı düşməsinə və keyfiyyətli məhsula olan ehtiyacın azalmasına səbəb olmuşdur. Belə şəraitdə yeni texnologiyalar əsaslı innovativ mexanizmlərin tətbiqinə ciddi zərurət yaranır [10]. Bu amil isə istehsalçıların öz məhsullarını hədəflədiklərindən daha aşağı qiymətə satmalarına və proqnozlaşdırılandan daha az mənfəət əldə etmələrinə zəmin yaratmışdır. Postpandemiya dövründə mövcud şərtlər düzgün təhlil edilməli gələcəkdə bu kimi hallarda sahibkarların rəqabət imkanlarını yüksəlməsinə müsbət təsir göstərəcək mümkün çıxış yolları axatarılmalıdır.

**Aqrar sahədə rəqabət qabiliyyətli məhsulların istehsalının artırılmasında kiçik və orta sahibkarlığın rolunun təkmilləşdirilməsi istiqamətləri**

Qeyd edək ki, aqrar sahədə KOS subyektləri və aqrobiznes sferası bir-birini tamamlayan və zəruri iqtsadi elementlər olmaqla birlikdə milli iqtisadiyyatın diversifikasiya imkanlarının artırılması istiqamətində mühüm rol oynayırlar. Hazırda aqrar sahədə KOS subyektlərinin bazara daxil olması müəyyən olunmuş iqtisadi və inzibati kriteryalar əsasında həyata keçirilir və inhisarçılıq meyillərinin qarşısının alınması normativ hüquqi aktlara müvafiq olaraq tənzimlənir [11]. Aqrobiznesdə KOS-ın inkişaf potensialını müəyyənləşdirən əsas amillərdən biri də istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi və bazar payının genişlən dirilməsidir. Bu kriteryalar ixracyönümlülüyün yüksəldilməsi üçündə zəruri hesab olunur. Araşdırmalar göstərir ki, KOS-ın ixracyönümlülüyünün "əsas şərtlərindən biri istehsalın intensiv yolla inkişafını təmin etmək və bu məzmunda zəruri şəraitin yaradılmasıdır. Hazırda aqrobiznes sektorunda kiçik və orta sahibkarğın inkişafı istiqamətində mühüm addımlar atılır. Lakin hesab edirik ki, bu istiqamətdə bəzi məsələlər bir qədər də ön plana çəkilməlidir: aqrar sahənin və qida məhsulları bazarının fəliyyətində səmərəliliyin yüksəldilməsinə zəmin ysradacaq mexanizmlərin formalaşdırılması; KOS-ın maliyyələşməsi, kredit təminatı, sığortalanması və istehsalın çoxşaxəliliyini təşviq edəcək proqressiv vergiqoyma sisteminin formalaşdırılması; KOS-subyektləri başda olmaqla, yerli əmtəə istehsalçıları beynəlxalq ticarətə qoşulduğu zaman onların iqtisadi maraqlarının müdafiə edilməsi; aqrar sahənin istehsal sferasının genişləndirilməsi və səmərəliliyin yüksəldilməsi məqsədilə elmi-tədqiqatların istehsalatda tətbiqinə imkan yaradan əlverişli mühitin yaradılması və fundamental elmin araşdırmaların dövlət tərəfindən stimullaşdırılması; kəndin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması hərtərəfli inkişaf etdirilməsi və s.

Hesab edirik ki, aqrobiznes sferasında kiçik və orta sahibkarların ixrac potensialını yüksəltmək və idxalı əvəz edəcək sahələrin inkişafını təmin etmək bəzi məsələlərin reallaşdırılması istiqamətində də mühüm rol oynaya bilər: regionalların inkişafında mövcud olan disproporsiyanın aradan qaldırılması; ölkə iqtisadiyyatının diversifikasiyasının təmin olunmasına töhfə verən real sektorun formalaşması; ölkənin ixrac imkanlarının yüksəldilməsi; əmək bazarında məşğulluğun optimal səviyyəsinin təmin edilməsi; istehlak bazarında iqtisadi fəallığın yüksəlməsinə müsbət təsir göstərərn orta təbəqənin formalaşması prosesinin intensivləşdirilməsi və s. Dünya təcrübəsi göstərir ki, aqrobiznes sferasında fəaliyyət göstərən biznes subyektlərinin rəqabətədavamlılığının artırılması məqsədilə ilk növbədə innovativ və balanslaşdırılmış formada bazar infrastukturunun əsas elementlərinin formalaşdırılması tələb olunur [12].

Bunlarla bərabər, bazar infrastrukturu biznes subyektlərinin təkmil fəaliyyətinin təmin olunması istiqamətində mühüm funksiyaları yerinə yetirir. Biznes subyektlərinin maliyyə ehtiyacının qarşılanmasında maliyyə-kredit sitemi, istehsal olunan məhsulun rəqabət potensialının yüksəldilməsində qiymət mexanizmi, təsərrüfatların səmərəli fəaliyyətinin təşkilində uzunmüddətli proqnozların verilməsi, biznes subyektlərinin iqtisadi öhtəliklərinin təmin olunması və ədalətli gəlir bölgüsünün təmini məqsədilə ədalətli vergi sistemi, təsərrüfat subyektlərinin fəaliyyətinə dəyən ziyanların qarşılanması və risqlərin aradan qaldırılması məqsədilə təkmil sığorta sistemi, sahibkarların xarici bazarlara çıxışının asanlaşdırılmasında xarici ixrac əlaqələrinin inkişaf etdirilməsi və s.

bazar infrastrukturunun zəruri elementlərinin əsas funksiyalarını əks etdirir. Dünya təcrübəsi göstərir ki, aqrar sahədə KOS-ın inkişafı istiqamətində aşağıdakı məsələrində həlli xüsusi önəm kəsb edir: aqrar sahədə istehsal olunan hər bir məhsulun miqdarı təyinatından asılı olmayaraq konkret olaraq müəyyən edilməlidir; aqrar sahədə istehsal olunan məhsulların, emalı, tədarükü və satışı ilə bağlı formalaşdırılmış infrastrukturlar arasında kooperasiya və iqtisadi inteqrasiya əlaqələri inkişaf etdirilməlidir; dövlətin aqrar sahənin tənzimlənməsində istifadə etdiyi əsas prinsiplər müəyyən edilməlidir; dövlət təminatlı qiymət siyasəti əsasında öz imkanları çərçivəsində alıcılıq qabiliyyətini möhkəmləndirməli sözügedən bazarın fəaliyyət imkanlarını genişləndirməlidir; KOS-ın fəaliyyətində təsərrüfatlar arası mövcud təşkilati-iqtisadi münasibətlər və idarəetmə mexanizmi bazar iqtisadiyyatının şərtlərinə müvafiq olaraq nizamlan malıdır və s.

Aqrar sahənin müasir inkişaf mərhələsində xammal istehsal edən müəssisələri ilə emal sənaye müəssiələri arasında iqtisadi maraqların uzlaşdırılması vacib amillərdən hesab olunur. İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, yerli istehsalçıların iqtisadi maraqlarının qorunması üçün idxal əməliyyatlarında proteksionizmin tətbiqi sahibkarların himayə olunmasında ən effektli vasitələrdən biri kimi istifadə olunur. Aqrobiznes subyektlərinin kifayət qədər təşkilatlanmaması və modern ticarət infrastrukurunun yetərsiz olması sahibkarlıq subyektlərinə olan münasibətlərin xarakterinə təsir göstərir. Buna görə də daha effektli praktiki iqtisadi alətlərin fəal şəkildə hazırlanması və tətbiqi vacib şərtlərdəndir [13]. Aqrobiznesdə ən aktual problemlərdən biri də rəqabətədavamlı istehsalın arzuolunan səviyyədə olmamasıdır. Beynəlxalq strandartlara uyğun məhsul istehsalının intensivliyinin təmin olunması innovativ texnologiyalardan istifadə səviyyəsinin yüksəldilməsini tələb edir. Qeyd olunan mühüm xüsusiyyətlərlə yanaşı, xammal istehsalı prosesində seleksiya, fitosanitar, zootexniki, zoobaytar işlərinin həyata keçirilməsi, əkin üçün tələb olunan yerlərin düzgün seçilməsi, istehsal prosesində təbii-iqlim şəraitinin imkanlarının düzgün qiymətləndirilməsi, sahə üçün tələb olunan kadrların müasir dövrün tələblərinə uyğun olaraq hazırlanması istehsal vasitələrinin dodernləşdirilməsi bu itiqamətdə əhəmiyyətli məsələlərdən hesab olunur.

Fikrimizcə, azad iqtisadi münasibətlərin inkişafı şəraitində aqrobiznesdə rəqabətqabiliyyətli istehsalın inkişafı istiqamətində aşağıdakı məsələlər prioritet hesab edilə bilər: aqrobiznesdə məhsulların qiymət və keyfiyyət xüsusiyyətlərinə görə rəqabət üstünlüyünün təmin edilməsi; aqrobiznesdə haqsız rəqabətin bütün xüsusiyyətlərini formalaşdıran səbəblərin, istehlak bazarında inhisarçılıq meyillərinin qarşısının alınmasına imkan yaradacaq iqtisadi mexanizmlərin formalaşdırılması; aqrar emal sənayesində istehsal olunan məhsullarla bağlı , resurs təminatı və müvafiq kommersiya təşkilatlarla qarşılıqlı əlaqələrinin optimal səviyyədə idarə edilməsi**;** aqrobiznes sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin regional üstünlüklərinin təmin olunması və resurs potensialından istifadədə optimal səviyyənin əldə olunması; aqrobiznesdə sahibkarlıq subyektlərinin təşəbbüskarlıq meyillərinin stimullaşdıran çeviq mexanizmlərin formalaşdırılması; aqrar sahədə iqtisadi subyektlərin məhsul istehsalı, emalı, satışı və tədarükü ilə bağlı mütərəqqi loqistik sitemlərin qurulmasında bu sahədə qabaqcıl olan dünya dövlətlərinin təcrübəsindən aktiv istifadə olunması; aqrar sahə məhsullarının idxalının əvəzlənməsində mövcud resurs potensialının optimal səviyyədə idarə edilməsi; aqrar istehsalın iqtisadi və ekoloji səmərəliliyinin müştərək şəkildə təmin olunması və s. Tədqiqatlar göstərir ki, aqrobiznesin inkişafında mühüm amillərdən biri də sahənin investisiyacəlbediciliyini yüksəldəcək tədbirlərin intensivləşdirilməsi, xarici inves- tisiyaların, texnologiya və nou-hauların, aqrar emal sənayesinin rəqabətqabiliyyətinin yüksəldilməsi məqsədilə cəlb edilməsi səmərəli tərəfdaşlıq və kooperasiya əlaqələrinin qurulmasıdır. Bu proseslər aqrar sahibkarlıq subyektlərinin dünya bazarlarına çıxışını təmin etməklə yanaşı daxili istehlak bazarında artan tələbatın ekoloji baxımdan təmiz məhsullarla təmin olunmasına imkan verəcəkdir [14].

Qeyd olunan mühüm nüanslarla yanaşı hesab edirik ki, hazırki iqtisadi şəraitdə aqrobiznes sektorunda kiçik və orta sahibkarların ixrac imkanlarının artırılması məqsədilə bir sıra məsələlər pioritet kimi qəbul olunması labüddür: kiçik və orta sahibkarların ixtisaslaşması istiqamətdə zəruri addımlar atılmalıdır; kiçik və orta sahibkarların ma-

liyyə təminatı yaxşılaşdırılmalı, ixracyönümlü istehsal təşviq olunmalıdır; kənd təsərrüfatında ekoloji təmiz məhsulların istehsalı və onların son istehlakçıya doğru istiqamətlənməsində bilavasitə vasitəçilərin sayı azaldılmalı və aqrar bazarda inhisarçılıq meyillərinin qarşısı alınmalıdır; aqrar bazarda rəqabət mühiti qorunmalı, biznes mühiti daha da şəffavlaşdırılmalı bu istiqamətdə mövcud olan neqativ meyillər məhdudlaşdırılmalı, sahənin inkişafında davamlılığı təmin etmək məqsədilə daha geniş çoxşaxəli tədbirlərin icrasında prioritetlik təmin olunmalıdır; yaşıl dünya naminə alternativ enerji mənbələrindən istifadə təşviq olunmalı bu istiqamətdə texnoloji, iqtisadi və digər resurslardan istifadənin səmərəliliyi yüksəldilməli , aqrar istehsalın ərazi təşkilində xüsusilə enerji daşıyıcılarından daha qənaətcil istifadəyə imkan yaradan fəaliyyətlər dövlət tərəfindən formalaşdırılmış mexanizmlər vasitəsi ilə dəstəklənməlidir və s. 2019-cu ilin sonlarından etibarən dünyada baş verən covid-19 pandemiyası səbəbi ilə baş qaldıran iqtisadi durğunluq və böhran meyilləri bütün sektorlara mənfi təsir göstərmişdir. İstehsal sahələrinin fəaliyyətində məhdudiyyətlərin yaranması, qlobal səviyyədə işsizliyin artmasına hətta insanların istehlak vərdişlərində kəskin dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Bu dövrdə aqrobzines sektoru və onun tərkibində mövcud olan sahibkarlıq subyektlərinin fəaliyyətində isə nəzərə çarpacaq ölçüdə geriləmələr müşahidə olunmamışdur. Bunun əsas səbəbi aqrobiznesin insan cəmiyyətinin ən zəruri ehtiyaclarının qarşılanmasında baza rolunu oynamasıdır. Pandemiyanın təsirləri ilə yanaşı son 50 ildə dünya əhalinin demoqrafik strukturunda baş verən dəyişiklər əhalinin sosial-iqtisadi vəziyyətinə təsir etmiş qlobal səviyyədə resurs çatışmazlığının artmasına zəmin yaratmışdır. Bu aspektdə ərzaq təhlükəsizliyi problemi 7 milyarddan artıq insanın yaşadığı ekosisteemdə ən aktual məsələlərdən birinə çevrilmişdir. Hazırki iqtisadi şəraitdə, hər bir ölkədə olduğu kimi respublikamızda da aqrar sektor iqtisadi sahələr içərisində yenidən prioritetlik qazanmışdır. Aqrar sahənin ölkə iqtisadiyyatında xüsusi çəksinin artırılması isə bilavasitə sahə üzrə rəqabət qabiliyyətinin yüksəldilməsini şərtləndirmişdir.

**Nəticə**

Qlobal səviyyədə böyük təsir gücünə malik iqtisadi böhranların təsirlərinin azaldılması baxımından ən böyük imkan təbii ki, dövlətə məxsusdur. Dövlət iqtisadiyyatın bütün sahələrində rəqabət mühitinin qorunması istiqamətində daima səmərəli tədbirlər həyata keçirir. Hesab edirik ki, mövcud şəraitdə fövqəlada hadisələrdən daha çox təsirlənən kövrək bir stuktura malik aqrobiznes sektorunda xüsusilə kiçik və orta təsərrüfat kateqoriyasına aid olan təsərrüfatların davamlılığının təmin olunması baxımından məqsədyünlü tədbirlərin icrası yenə dövlətin iqtisadi siyasətinin prioritetini təşkil edəcəkdir. Lakin qənaətimizə görə kiçik və orta ölçülü təsərrüfatların qorunması başda olmaqla, subsidiya, güzəştli kredit, vergi siyasəti, idxalın tarif və tarifsiz tənzimlənməsi siyasəti ilə yanaşı istehsal subyektlərinin rəqabət xüsusiyyətlərini inkişaf etdirəcək mütərəqqi mexanizmlərin formalaşdırılması bu aspektdə mühüm rol oynayacaqdır.

Hesab edirik aqrobiznesdə iqtisadi subyektlərin inkişafına aşağıdakı tədbirlərin həyata keçirilməsinin də müsbət təsiri ola bilər:

- xammal istehsalçıları ilə yanaşı emal sənaye müəssisələri üçün əlverişli torpaq-iqlim şəraitindən iqtisadi rayonların mövcud resurs potensialına müvafiq olaraq istifadə etmək,
- aqrar sahədə istehsal olunan məhsulların rəqabətədavamlılığını yüksəltmək üçün beynəlxalq standartları uyğun innovativ texnologiyaların istehsal prosesində tətbiq edilməsi;
- aqrar istehsalın inkişafını sürətləndirmək yerli sahibkarları stimulaşdıracaq tədbirləri intensiv şəkildə həyata keçirməklə yanaşı yerli və xarici investorları bu sahəyə yönləndirə biləcək təşviq mexanizmlərin formalaşdırılması;
- aqrar sahədə rəqabətədavamlılı məhsulların istehsalını təmin etmək üçün bu sahədə zəngin təcrübəyə malik ölkələrin qabaqcıl istehsal müəssisələri ilə müştərək fəaliyyətin təşkili və onların təcrübəsindən maksimum səviyyədə istifadə olunması və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Quliyev, E.A. Aqrar İqtisadiyyat. Ali məktəblilər üçün dərslik / E.A.Quliyev – Bakı: Kooperasiya, – 2015. – 319 s.
2. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2017. – 536 s.
3. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Monoqrafiya /

V.H.Abbasov – Bakı, 2012. – 423 s.

4. Aliyev, Sh.T. Problems Of Diversification Of Azerbaijani Economy In Modern Conditions / VIII International scientific and practical conference «Current problems of social and labor relations» (ISPC-CPSLR 2020), Makhachkala. 17-18 December 2020. – P.38-44.

5. Allahverdiyev, H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Ali məktəblər üçün dərslik / H.B.Allahverdiyev, K.S.Qafarov, Ə.M.Əhmədov – Bakı: Nasir, – 2002. – 448 s.

6. Алиев Ш.Т. Важность применения новых экономических инструментов в экономических процессах Азербайджана// Национальные интересы: приоритеты и безопасность. 2009, № 12. С. 80–90.

7. Əliyeva, Ş.T. Kiçik və orta biznesin inkişafı və məşğulluq problemləri / Ş.T.Əliyeva – Bakı: Elm, – 2006. – 288 s.

8. Əliyev, R. Sahibkarlıq fəaliyyətinin maliyyələşməsinin tənzimlənməsinin metodoloji əsasları / R.Əliyev, T.Zeynalov – Bakı, 2001. – 152 s.

9. Hacıyeva, S.T. Aqrar emal müəssisələrinin inkişafında kənd təsərrüfatı istehsalının rolu // – Bakı: AMEA- nın elmi əsərləri – 2015. № 5, – s. 135-140.

10. Алиев Ш.Т. Моделирование инноватизации национальной экономики в современных условиях // Научное обозрение, 2014 , № 06, С. 342-346.

11. Hüseynov, M.M. Aqrar sahənin innovativ inkişaf problemləri / M.M.Hüseynov. – Bakı: Kooperasiya, – 2023. – 304 s.

12. Mehtiyev, A.S. Azərbaycan sənayesində kiçik müəssislərin formalaşması və inkişafı məsələləri: / iqtisad elmləri, namizədlik dissertasiyası. / – Bakı, 2011. –155 s.

13. Aliyev, Sh.T. (2014). Economics of Azerbaijan: upgrading and implementation of effective instruments. Life Science Journal, 11, 321-326.

14. Verdiyev, Ə.Ç. Aqrar bazann formalaşmasının iqtisadi problemləri / Ə.Ç.Verdiyev, İ.Ş.Qarayev – Bakı, 2014. – 256 s.

**Севда Тофик кызы ГАДЖИЕВА**
Доцент Азербайджанского Государственного Аграрного Университета,

## ПОВЫШЕНИЕ РОЛИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В ПРОИЗВОДСТВЕ КОНКУРЕНТОСПОСОБНОЙ ПРОДУКЦИИ В АГРАРНОМ СЕКТОРЕ

### Резюме

*Целью исследования* – является изучение роли малых и средних предприятий в производстве конкурентоспособной продукции в аграрном секторе. С этой целью раскрыта проблемы конкурентоспособности аграрного сектора. Рассмотрены проблемы повышения роли малого и среднего предпринимательства в повышении конкурентоспособности аграрного сектора. Подготовлены рекомендации и внесены предложения по повышению конкурентоспособности продукции, производимой субъектами малого и среднего предпринимательства.

*Метод исследования* состоит из методов: анализ, синтез, сравнение и обобщение. Кроме того, были рассмотрены различные методологические подходы к проблемам конкурентоспособности в аграрном секторе.

*Итоги исследования* отражается в том, что полученные научные и практические результаты могут быть полезны при разработке мер и механизмов повышения роли субъектов малого и среднего предпринимательства в организации производства конкурентоспособной продукции в агропромышленном комплексе.

***Ключевые слова:*** *аграрный сектор, конкуренция, производство продукции, проблемы конкурентоспособности, малые и средние предприятия, проблемы развития аграрного сектора.*

**Sevda Tofig GAJIEVA**
Associate Professor of the Azerbaijan State Agrarian University,

## INCREASİNG THE ROLE OF SMALL AND MEDİUM-SİZED BUSİNESSES İN THE PRODUCTİON OF COMPETİTİVE PRODUCTS İN THE AGRO-İNDUSTRİAL COMPLEX

**SUMMARY**

*The purpose of the study* is to study the role of small and medium enterprises in the production of competitive products in the agricultural sector. For this purpose, the problems of competitiveness of the agricultural sector were explained. The problems of increasing the role of small and medium businesses in increasing the competitiveness of the agricultural sector were considered. Recommendations were prepared and proposals were made to increase the competitiveness of products manufactured by small and medium businesses.

*The research method* included a set of methods, including analysis, synthesis, comparison and generalization. In addition, various methodological approaches to the problems of competitiveness in the agricultural sector were considered.

*Summarizing the results of the study*, we note that the obtained scientific and practical results can be useful in developing measures and mechanisms to increase the role of small and medium businesses in organizing the production of competitive products in the agro-industrial complex

***Keywords**: agricultural sector, competition, production of goods, problems of competitiveness, small and medium enterprises, problems of development of the agricultural sector.*